**I Avropa Oyunlarında ölkəmizi təmsil edəcək idmançılardan 24 nəfəri Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman məktəblərinin yetirmələri və həmin məktəblərdə çalışan məşqçi-müəllimlərdir. Onlar 7 idman növü üzrə (atletika, akrobatika gimnastikası, badminton, qılıncoynatma, sambo, sərbəst güləş, stolüstü tennis) mübarizə aparacaqlar.**

**Tofiq Məmmədov** "Təhsil" Respublika İdman Mərkəzinin 1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Mərkəzinin yetirməsidir. Yadro itələmə üzrə beşqat Azərbaycan çempionu olan T.Məmmədov Avropa çempionatında ilk onluğa düşüb.

**İsmayıl Əliyev** Bakı şəhər 5 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Atletika Məktəbinin yetirməsidir. İdmanın yadro itələmə növü ilə məşğul olan İ.Əliyev Azərbaycan çempionatında II yerin, Azərbaycan Kubokunda III yerin sahibi olub.

**Alyona Setina** idmanın atletika növü ilə məşğul olur.Azərbaycan və Bakı çempionatlarının iştirakçısı olan A.Setina Bakı şəhər 5 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Atletika Məktəbinin yetirməsidir.

**Yekaterina Sarıyeva** Bakı şəhərı 5 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Atletika Məktəbinin yetirməsidir. Üç təkanla uzunluğa tullanma ilə məşğul olan Y.Sarıyeva İslam Oyunlarının qızıl, Avropa turnirinin gümüş mükafatçısıdır. Y.Sarıyeva Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsidir.

**Aynur Hüseynova** Təhsil Nazirliyinin İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Gimnastika Məktəbinin yetirməsidir. Bakı Pedaqoji Kollecində təhsil alan A.Hüseynova akrobatika gimnastikası ilə məşğul olur. O, Respublika çempionatının qalibi, Minsk şəhərində keçirilən beynəlxalq turnirin bürünc mükafatçısı olub. Avropa çempionatında isə V yeri tutub.